2019-cu il dekabrın 23-dəkeçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlham Məmmədovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 dekabr 2020-ci il tarixli 55 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 6 yanvar 2020-ci il

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Bəndaliyev Zabil Adil oğlu və digərləri 3 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası)yazılı müraciət edərək həmin seçki dairəsinin 41/112 saylı 31 dekabr 2019-cu il tarixli qərarını mübahisələndirmiş şikayətə baxılması və müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Mən, ekspert qrupunun üzvü İlham Məmmədov həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Şikayətçilər öz müraciətində göstərmişlər ki, dairə seçki komissiyası onları dinləmədən heç bir məlumat vermədən ünvanlanmış şikayəti əsassız saymışdır.

Araşdırma prosesində müraciət etmiş şikayətçilərdən biri olan Əmrahov Şirin Allahbaxış oğlu ilə əlaqə saxlanılmış, ona hər hansı sənəd və materiallar təqdim etmək, araşdırma və iclasda iştirak etmək və digər hüquqlarının olması izah edilmiş, ona iclasın vaxtı barədə məlumat verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

61 saylı Neftçala seçki seçki dairəsinin seçki komissiyasından Bəndaliyev Zabil Adil oğlunun və digərlərinin müraciətinin araşdırılması ilə bağlı təqdim olunmuş sənədlərdən müəyyən edilmişdir ki, dairə seçki komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən seçki dairəsinin 35 saylı seçki məntəqəsində səsvermə günü müşahidə aparmış qeydə alınmış namizədlərdən, müşahidəçilərdən izahat alınmış, izahatlarda 35 saylı seçki məntəqəsində səsvermə və səslərin sayılması prosesi özləri və müşahidəçiləri vasitəsilə müşahidə edilmiş, müşahidə zamanı səsvermənin nəticələrinə təsir edə biləcək qanun pozuntularına rast gəlinmədiyi bildirilmişdir. Eyni məsələ ilə bağlı məntəqədə səsverməni və səslərin hesablanmasını müşahidə etmiş qeydə alınmış namizədlər, müşahidə aparmış müşahidəçilərdən, ümumilikdə 20 nəfərdən alınmış izahatlarla müraciətdə göstərilən hallar öz təsdiqini tapmamış, bu səbəbdən müraciət təmin edilməməşdir.

Araşdırmada zamanı səsvermə günü hər hansı bir qanun pozuntusuna yol verilmədiyini, səsvermə prosesini, səslərin hesablanmasını müşahidə etmiş müşahidəçilər Ə.A.Cəfərovun, H.Ə.Əliyevin, Ş.N.Kərimovun, Ə.E.Əhmədovun, S.Ə.Həsənovun həmçininbələdiyyə üzvlüyünə seçilməmiş digər namizədlər E.F.Bəşirovun, K.M.Kərimovun, E.Ə.Heydərovun, A.B.Həşimovun, S.Q.Məlikovun, C.A.Ağayevin, seçilmiş namizədlər B.H.Həşimovun, B.G.Bəşirovun, 35 saylı məntəqə seçki komissiyasının sədri S.H.Bayramovun, komissiyanın katibləri İ.R.Quliyevin, N.R.Xankişiyevin, komissiyanın üzvləri A.S.Abseynovun, Q.M.Ağayevin və V.Y.Əzizovun izahatları ilə təsdiqolunur.

Qeyd edilməlidir ki, dairə seçki komissiyası tərəfindən ərizəçilərin komissiyanın iclasında iştirakı təmin edilmiş, lakin onlar iclas başa çatmamış narazılıqlarını bildirərək oranı tərk etmişdirlər.

Araşdırma nəticəsində 61 saylı Neftçala seçki dairəsidairə seçki komissiyasının 31 dekabr 2019-cu il tarixli 41/112 saylı qərarının seçki qanunvericiliyinin tələblərinə uyğun qəbul edildiyi müəyyən olunmuşdur.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Bəndaliyev Zabil Adil oğlu və digərlərinin 3 yanvar 2020-ciil tarixli 55 saylı müraciəti əsassız olduğundan təmin edilməsin,dairə seçki komissiyasının 31 dekabr 2019-cu il tarixli 41/112 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlham Məmmədov